

Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

1 AVQUST 2024-cü il | CÜMƏ AXŞAMI | № 161 (7919) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ

# Yeni dövrün böyük uğurları



***"Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!". Fevralın 14-də Milli Məclisdə andiçmə mərasimi zamanı bu sözləri söyləyən Prezident İlham Əliyevin rəhbərliyi ilə indi işğaldan azad olunmuş ərazilərdə üçrəngli bayrağımız qürurla dalğalanır.***

Respublikamıza rəhbərlik etdiyi ilk günlərdən dövlət müstəqilliyimizin qorunması, ərazi bütövlüyümüzün təmin olunması kimi taleyüklü problemlərə rəğmən, əhalinin rifahının yaxşılaşdırılması məsələlərini həyata keçirdiyi siyasətin prioriteti olaraq müəyyən edən Prezident İlham Əliyev bu istiqamətdə böyük uğurlara imza atıb. Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan ölkə başçımızın uğurlu diplomatiyası sayəsində 30 illik erməni işğalına son qoyuldu. Cəmi 44 günə yağı düşməni diz çökdürən Azərbaycan ordusu Ali Baş Komandanın rəhbərliyi ilə zəbt olunmuş ərazilərimizi döyüşərək geri aldı. Öz gücünə, haqlı mövqeyinə əsaslanan müstəqil dövlətimiz 30 il BMT qətnamələrinə, beynəlxalq hüquq normalarına məhəl qoymayan ermənilərə və hər zaman Azərbaycana ikili münasibət bəsləyən erməni havadarlarına layiqli dərs verdi. İkinci Qarabağ müharibəsini qalibiyyətlə başa vuraraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən, Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradan, söz sahibinə çevrilən Azərbaycan gündən-günə güclənir və çox sayda ölkələrlə dostluq, tərəfdaşlıq əlaqələri qurmaqla dünyanın inkişaf etməkdə olan dövlətləri sırasına yüksəlib.

İkinci Qarabağ müharibəsində şanlı qələbəmizi həzm edə bilməyən ermənipərəst qüvvələrin əks-təbliğatına baxmayaraq, bu gün sülhsevər, humanist Azərbaycanın uğurlu diplomatiyası beynəlxalq aləmdə təqdir edilir, örnək göstərilir. Hərb meydanında, diplomatiya müstəvisində qalib gələn ölkəmizin postmüharibə dövründə regionda sülhü təşviq etməsi, eyni zamanda düşmənin yer-lə-yeksan etdiyi əraziləri yenidən qurması heyrətlə qarşılanır. Bütün bunlar müstəqil, güclü iqtisadiyyata və zəngin təbii ehtiyatlara sahib Azərbaycanın reallığıdır. Bu, işğaldan azad olunmuş ərazilərdə daha aydın şəkildə özünü göstərir.

İkinci Qarabağ müharibəsi qalibiyyətlə başa çatdıqdan sonra işğaldan azad olunan ərazilərdə sürətli quruculuq işlərinə başlanılıb. Ölkə başçısının rəhbərliyi ilə düşmənin yer üzündən sildiyi şəhər və kəndlərimizin tarixi görkəminin saxlanması ilə müasirliyin vəhdətində yenidən qurulması geniş vüsət alıb. Minatəmizləmə əməliyyatları ilə paralel quruculuq aparılır, yeni yaşayış binaları, fərdi evlər tikilir və bu "ağıllı şəhərlər", "ağıllı kəndlər" salınır. Artıq işğaldan azad olunmuş ərazilərimizdə yerləşən 4 şəhər və 4 kənddə məskunlaşma həyata keçirilib, 8 minə yaxın keçmiş məcburi köçkün öz yurduna geri qayıdıb.

Erməni faşistləri tərəfindən darmadağın edilmiş, viran qoyulmuş şəhər və kəndlərimiz, tarixi, mədəni, dini abidələrimiz qətiyyətlə, əzmlə bərpa olunur.

**(davamı 4-cü səhifədə)**

**(əvvəli 1-ci səhifədə)**

Mərhələli şəkildə öz ata-baba yurdlarına qayıdan vətəndaşlarımızın dayanıqlı məskunlaşmasını təmin etmək, bu əraziləri cəmiyyətin sağlam, müasir və abad yaşayış mühitinə çevirmək üçün elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastruktur yenidən qurulur. Bir sözlə, İkinci Qarabağ müharibəsindən sonra müstəqil dövlətimizin qarşıya ən vacib məsələ kimi qoyduğu Böyük Qayıdış prosesi davam edir. Tarixi torpaqlarımızın əsl sahibləri qürurla dalğalanan üçrəngli bayrağımızın altında firavan günlərinə qovuşurlar. Artıq müstəqil dövlətimiz bütün ərazilərinə tam nəzarət edir, mənfur düşmənin izi torpaqlarımızdan birdəfəlik silinir. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda Böyük Qayıdış proqramı çərçivəsində genişmiqyaslı reabilitasiya işləri həyata keçirilir.



Bu gün Azərbaycan dünya birliyinə davamlı inteqrasiya edir. Bütün sahələrdə sürətli inkişaf dövrünə qədəm qoyan ölkəmiz dünyada müasir həyat səviyyəsinin təmin olunduğu etibarlı tərəfdaş kimi tanınır. Dövlətçilik ənənələrini möhkəmləndirən, iqtisadi gücünü gündən-günə artıran, böyük potensiala malik olan ölkəmizin gələcəyə hesablanmış sürətli inkişafı regiona da öz müsbət təsirini göstərir. Cənubi Qafqazın lider dövləti çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu ilə regional və beynəlxalq əməkdaşlığa, bölgədə təhlükəsizliyə mühüm töhfələr verir. İctimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində isə Prezident İlham Əliyevin məqsədyönlü inkişaf strategiyası dayanır. Ölkə başçısının siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi islahatlar artıq Azərbaycan reallığı və modelinə çevrilib.



**Mehparə ƏLİYEVA,**
**"Respublika".**